# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

## S Ə R Ə N C A M

**Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatının siyahıyaalınmasına Yardım Komissiyasının yaradılması barədə**

"2025-ci ildə Azərbaycan Respublikasında kənd təsərrüfatının siyahıyaalınmasına hazırlıq və onun keçirilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 4 oktyabr tarixli 357 nömrəli Qərarının 12.1-ci bəndinə əsasən**:**

1. Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatının siyahıyaalınması ilə əlaqədar hazırlıq və onun keçirilməsi üzrə tədbirlərin vaxtında və mütəşəkkil yerinə yetirilməsini, qarşıya çıxan çətinliklərin operativ surətdə aradan qaldırılmasını, siyahıyaalmaya cəlb olunacaq təlimatçı-nəzarətçilərin və sayıcıların vaxtında müəyyənləşdirilməsini təmin etmək məqsədilə aşağıdakı tərkibdə kənd təsərrüfatının siyahıyaalınmasına Yardım Komissiyası yaradılsın:

**Yardım Komissiyasının sədri**

Elşad Əliyev - Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavini

**Yardım Komissiyası sədrinin müavini**

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin sədri

**Yardım Komissiyasının üzvləri:**

Naxçıvan Muxtar Respublikası kənd təsərrüfatı nazirinin müavini

Naxçıvan Muxtar Respublikası iqtisadiyyat nazirinin müavini

Naxçıvan Muxtar Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini

Naxçıvan Muxtar Respublikası təhsil nazirinin müavini

Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini

Naxçıvan Muxtar Respublikası rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini

Naxçıvan Muxtar Respublikası Qida Təhlükəsizliyi Agentliyi sədrinin müavini

Naxçıvan Dövlət Universitetinin prorektoru.

2. Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi siyahıyaalma kadrlarına olan tələbatın ödənilməsi məqsədilə işaxtaran və işsiz kimi qeydiyyata alınmış uçot sahəsində səriştəsi olan şəxslərin kənd təsərrüfatının siyahıyaalınmasının keçirilməsinə cəlb edilməsində kənd təsərrüfatının siyahıyaalınmasına yardım komissiyalarına kömək göstərsin.

3. “Naxçıvan Muxtar Respublikasının Dövlət Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyəti muxtar respublikada kənd təsərrüfatının siyahıyaalınmasına hazırlıq və onun keçirilməsi ilə bağlı radio və televiziyada müntəzəm olaraq xüsusi proqramlar təşkil etsin və bununla bağlı həyata keçirilən tədbirlərin geniş işıqlandırılmasını təmin etsin.

4. Naxçıvan Muxtar Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi muxtar respublikada kənd təsərrüfatının siyahıyaalınması dövründə telekommunikasiya şəbəkələrinin işinin dayanıqlılığını təmin etmək üçün zəruri tədbirlər görsün.

5. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Ceyhun Cəlilov**

Naxçıvan şəhəri, “28” dekabr 2024-cü il

№ 132s